AZƏR-ÇEX Cəmiyyəti
Çexiya Respublikası-Praqa
CZ-181 00 Hlivická 417/22

Sdružení AZER-ČECH
Praha-Česká republika
CZ-181 00 Hlivická 417/22

www.diaspora.cz

Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi
Sədr Nazim İbrahimov cənablarına

Cənab Sədr,

Ilk öncə şəxsən Sizi və başçılıq etdiyiniz kollektivi Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni 2005 il münasibətilə təbrik edir, can sağlığı və işlərinizdə uqurlar arzulayıram!

AZƏR-ÇEX Cəmiyyəti ilə Dövlət Komitəsinin sağlam əməkdaşlığı artiq ikinci ildir ki davam edir, və bizlər inanırıq ki bu ənənə uzunmüddətli olacaq. Çünki bundan düşmənlərimiz deyil, millətimiz qazanar. Xaricdə yaşayan hər bir azərbaycanlı üçün təşkilatınız mühüm əhəmiyyət kəsb edir. Dünya Azərbaycanlılarının bir araya gəlməsi yolunda apardığınız siyasət və gördüyünüz əməli işlərlə bu etimadı doğrultmusuz. Buna görə şəxsən Sizə və Nazim Qaraxanov, Səbinə Sultanova, Günel Talışxanova kimi əməkdaşlarınıza minnətdariq.

“Xeyirxahliq babalardan qalib“ deyib atalarımız… Biz də bir diaspora təşkilatı olaraq əməli işlə Vətənimiz Azərbaycana az da olsa qücümüz çatan yardımda bulunmağı düşünürük.

Belə ki, AZƏR-ÇEX Cəmiyyəti və „Sri Chinmoy Center“ Humanitar Mərkəzinin Praqa ofisi arasında razılıq əldə olunmuşdur. Bunun sayəsində Azərbaycandakı tibbi müəssisələrə, xəstəxanalara, məcburi köçkünlərə, əlillərə və kimsəsiz uşaq evlərinə lazım ola biləcək avadanlıq və materiallarla yardım etmək imkanı yaranmışdır. Bu proyekt uzunmüddətli və geniş miqyaslı ola bilər. Azərbaycan tərəfdən kordinator rolunda təmsil etdiyiniz Komitəni görürük. Konkret vəzifələr aşağıdakılardan ibarətdir:

1. Yuxarıda adı çəkiilən müəssisələrə vacib lazım olan və çatışmayan avadanlıqların, materialların siyahısını Cəmiyyətimizə çatdırmaq;

2. Azərbaycana yetiştirilən bu humanitar yardımın yol, vergi və sənədləşdirməklə bağlı olan öhdəliklərində yardımçı olmaq;

3. Edilən yardımın qorunmasında, ünvanına çatdırılmasında və medializasiyasında nümayəndələrimizlə işbirliyi qurmaq.

Başlanğıc üçün konkret olaraq, Azərbaycandakı kimsəsiz uşaq evlərinə oyuncaqlar və Multivitamin preparatları göndərməyi qərarlaşdırdıq. Bu kiçik Yeni il töhfəsi 360 nəfər kimsəsiz uşağın 1 aylıq vitamin təminatını tam ödəmək üçün nəzərdə tutulub.

Xoş arzularla

Dr. Elşən S. Nəzərov
AZƏR-ÇEX Cəmiyyətinin Sədri

7.1.2005 – Praqa, Çexiya Respublikası